# Ani bir ehtiyatsızlıq təhlükəli virusa yoluxma riskini artırır

## *Məsuliyyətli olun, qaydalara əməl edin!*

***Son günlər koronavirusa yoluxma hallarının artmasını nəzərə alaraq, Səhiyyə Nazirliyinin idarəçiliyində olan Bakı şəhəri üzrə poliklinikalar gücləndirilmiş iş rejiminə keçib. Belə ki, müraciətlərin çoxluğu səbəbindən tibb personalı istirahət günlərində də işə çıxacaq. Bu barədə Binəqədi rayonundakı 27 saylı şəhər poliklinikasının həkimi Aynur Kərimova bildirib. Həkim deyib ki, həftənin şənbə və bazar günləri də daxil olmaqla, yeddi gün səhər saat 08:00–dan 18:00-dək vətəndaşlara COVID–19-la bağlı xidmətlər göstəriləcək. Bu xidmətlərə evdə müalicə alan xəstələrin müşahidəsi, müraciət edənlərdən yaxmaların götürülməsi və kompleks vitaminlərin paylanması daxildir.***

Hazırda xəstəxanalardakı vəziyyət də narahatlıq doğurur. Bütün dünyada koronavirusla bağlı ölüm hallarının sayı qrip ilə əlaqədar ölüm hallarından iki dəfə çoxdur. Qripdən ölənlərin statistikası göstərir ki, onların bir çoxu evdə dünyasını dəyişir, çünki bu virusu təhlükəli hesab etmirlər. Bu barədə “Annals of the American Thoracic Society” jurnalında xəstəxanalarda koronavirus və qripdən ölüm hallarını təhlil edən araşdırmanın nəticələrində bildirilib. Qeyd edilib ki, söhbət xəstəxanalara ağır qrip və koronavirus formaları ilə müraciət edənlərdən gedir. COVID–19-dan ölüm nisbəti 40 faiz, qrip olanlar arasında isə 19 faiz təşkil edib. Bu məlumatlar xəstənin yaşından, cinsindən, digər xəstəliklərin mövcudluğundan asılı deyil. Bu, ABŞ-da COVID – 19 və qrip xəstələrində klinik xüsusiyyətləri, laboratoriya nəticələrini birbaşa müqayisə edən ilk tədqiqatdır. Əvvəllər bu xəstəliklər arasındakı ölüm halı, xəstəxanalara qəbul olub - olmamasından asılı olmayaraq, bütün xəstələrin ümumi xüsusiyyətlərinə görə müqayisə olunurdu.

Qeyd edək ki, COVID – 19 üçün dəqiq ölüm nisbətini hesablamaq olduqca çətindir, çünki tam olaraq nə qədər insanın xəstə olduğunu təyin etmək mümkün deyil. Pandemiyanın ilk aylarında yalnız ən ağır xəstələrə testlər edilirdi və asimptomatik və ya yüngül halların 90 faizindən çoxu nəzərə alınmırdı. O zaman sadə hesaba əsaslanaraq, koronavirusdan ölüm nisbətinin demək olar ki, 10 faizə yaxınlaşdığı nəticəyə gəlirdilər. Daha sonra, asimptomatik xəstələr üçün düzəlişlə Dünya Səhiyyə Təşkilatı onu 0,6 faizə endirdi, bu da mövsümi qrip üçün 0,1 faizdən çox yüksəkdir.

Ölkəmizdə COVID – 19-a yoluxma sayındakı sürətli artım çox böyük narahatlıq doğurur. Sağalanlarla yoluxanlar arasında müsbət dinamikanın pozulması, ölüm sayının çoxluğu da bu sıradadır. Təəssüf ki, mənfi dinamikanın dayandığını demək olmaz. Daha əvvəl yoluxma hallarının çoxalmağa başladığı ölkələrdə də stabilləşmə yoxdur. Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib ki, hesab edirəm ki, pik nöqtəyə gəlib çatırıq: “Pik nöqtəyə çatanda yoluxma sayları yüksək rəqəmlərlə davam edəcək, xəstəlikdən sağalanların sayı da artacaq. Bir müddət bu stabilləşmə dövrü davam edəcək, ondan sonra karantin tədbirlərinin lazımi səviyyədə yerinə yetirildiyi təqdirdə azalmalar müşahidə olunacaq, lakin indidən bunun nə vaxt baş verəcəyi barədə proqnoz vermək çətindir. Güman etmək olar ki, noyabrın axırları və dekabrın əvvəllərində bu suala müəyyən qədər aydınlıq gətiriləcək”.

Mütəxəssislər bildirirlər ki, COVID – 19-un simptomlarında heç bir dəyişiklik yoxdur. Ümumiyyətlə, xəstəliyin elə bir tipik simptomu yoxdur ki, buna əsasən yeni koronavirus infeksiyasını təsdiqləmək mümkün olsun. Müəyyən simptomlar qrupu var və onlara da müxtəlif tezlikdə rast gəlinir. Bəzi insanlarda xəstəliyin başlanğıcında daha çox qızdırma, ümumi zəiflik, quru öskürək və bir qədər az hallarda boğaz ağrısına rast gəlinir. Lakin bu əlamətlər hamıda olmur və bununla yanaşı digər əlamətlər də müşahidə edilir. Yoluxanların bir qrupunda kürək ağrıları, iy və dadbilmənin itirilməsi, başqa qrupunda isə ishal və digər əlamətlər müşahidə edilir. Baş infeksionist deyib: “Amma həmin hallar daha kiçik və fərqli tezlikdə baş verir. Yəni, bir xəstədə üç-dörd simptoma daha çox rast gəlinir, digərlərində isə fərqli əlamətlər olur. İnfeksiyanın gediş xüsusiyyətlərinin dəyişməsi üçün virus kifayət qədər dəyişməli, əsaslı mutasiyaya uğramalıdır. Buna isə zaman lazımdır, çünki qısa vaxtda bu, baş verə bilməz. Qrip virusu ilə müqayisədə koronavirus daha davamlı virusdur. Dəyişiklik üçün ən azı 1 – 3 il vaxt lazımdır. İnsanlar düşünürlər ki, virus dəyişəcək, digərləri kimi olacaq və artıq buna əhəmiyyət verilməyəcək. Əlbəttə, bunun baş verəcəyi istisna olunmur, çox güman ki, bu baş verəcək. Amma indi yox, bunun üçün az vaxt keçib”.

İnfeksionistin dediyinə görə, qripdən fərqli olaraq, koronavirus ev şəraitində bir çox hallarda böyüklərdən uşaqlara keçir: “Qripdən fərqli olaraq, uşaqlar koronavirusa yoluxanda ya simptomsuz, ya da yüngül keçirirlər. Azyaşlı uşaqlar COVID – 19 infeksiyasının fəsadlaşmasının risk qrupuna aid deyil. Risk qrupuna yaşlılar və yanaşı xroniki xəstəlikləri olanlar aiddir. Amma qripdə bunun əksinə olaraq, 5 yaşadək, xüsusən 1 yaşadək uşaqlar risk qrupuna aiddirlər, onlar qripi daha ağır keçirirlər. Təbii ki, uşaqlar koronavirusa yoluxur və müəyyən dövrdə virusu gəzdirirlər. Yoluxanların sayı çoxdursa, virus daşıyıcılarının başqasına virus ötürmə ehtimalı az da olsa, realizə olunur. Ancaq uşaqlar da koronavirusu ağır keçirə bilər, çünki onların arasında immun çatışmazlığı olan, yanaşı xroniki xəstəlikləri olanlar var. Həmin hallar olduqda azyaşlılarda da böyüklər kimi ağır formalar inkişaf edə bilər. Ümumilikdə isə belə halların sayı böyüklərlə müqayisədə çox deyil”.



Virusa yoluxmamaq üçün qorunmadan danışanda, peyvəndin vacibliyindən də söz açmaq lazımdır. Nə qədər ki, peyvənd tapılmayıb, qorunmaq üçün maska taxmaq, məsafə saxlamaq, əl gigiyenası və təmasların minimuma endirilməsindən başqa yol yoxdur. Kütləvi peyvənd olunması və ya kollektiv immunitetin formalaşması da infeksiyaya qarşı mübarizə formalarından biridir. Əhalinin yeni koronavirusa qarşı kütləvi peyvənd olunması kollektiv immunitet yaradacaq, bunun nəticəsində xəstəliyə yoluxma sayı idarə olunacaq və yoluxma kifayət qədər aşağı olacaq. Mütəxəssislərin fikrincə, bu, yaxın vaxtlarda baş verəcək məsələ deyil, ola bilsin ki, gələn yaydan sonra olacaq. Rusiya, ABŞ və digər ölkələrdə peyvəndlərin kliniki sınaqları aparılır. Lakin həmin sınaqların nəticələrinin öyrənilməsi, peyvəndlərin təsirli və təhlükəsiz olmasının müəyyən edilməsi üçün vaxt lazımdır. Ən yaxın müsbət proqnoz ondan ibarətdir ki, gələn ilin payızına qədər çox güman ki, artıq müəyyən məsələlər həll olunacaq.

ATU-nun Tədris Terapevtik Klinikasının şüa diaqnostikası şöbəsinin müdiri, radioloq Aydın Əliyev bildirib ki, sosial məsuliyyətini dərk etməyən, özünün və digərlərinin sağlamlığını düşünməyən insanlar çox ciddi cəzalandırılmalıdır: “Sadəcə dəhşətdir! Ölkədə koronavirus xəstəliyi tüğyan edir! Nə qədər deyirsən, nə qədər təbliğat aparırsan, nə qədər maarifləndirirsən, yenə də xeyri yoxdur, sanki. Küçələrdə, marketlərdə, qapalı obyektlərdə nə qədər maska geyinməyən, ara məsafəsi gözləməyən, əl ilə, hətta, öpüşüb görüşən, açıq-aşkar xəstəlik əlamətləri ilə cəmiyyət arasında gəzən insanlar görürük”.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının şöbə müdiri, tibb üzrə fəlsəfə doktoru Nurlana Əliyeva deyib: “Maska geyinin, maskanı qaydasında taxın! Ara məsafəsi saxlayın! Əllə görüşməyin! Öpüşməyin! Xəstə halda insanlar arasına çıxmayın! Koronavirusdan 50-dən çox həkim, 100-lərlə tibb işçisi ölüb! Reanimasiyalarda xəstələr hədsiz çoxdur! Nə qədər şəkərli diabet, ürək-damar, xərçəng xəstəliyi olan yoluxmuş, xəstəliyi ağır keçirən insanlar var! Nə qədər böyrək, qaraciyər transplantasiyası edilən immun sistemi zəifləmiş insanlar var. Onları düşünək heç olmazsa! Ən sadə qaydalara əməl etməməyin -- qapalı yerlərdə maska geyinməməyin, ara məsafəsi gözləməməyin, testi müsbət çıxanların insanlar arasında gəzib onları yoluxdurması nə deməkdir? Bu, öz xalqına, millətinə qarşı xəyanətdir! Bunun başqa adı yoxdur!”

Həkimin həyəcanı, hiddəti başa düşüləndir. Çünki onlar hər gün ağır, boğulan, onlardan mədət uman xəstələrlə bir yerdədirlər. Bizim görmədiyimiz acınacaqlı halları onlar yaşayırlar. Ona görə də az qala hər gün sosial şəbəkələr, saytlar, televiziya kanalları, ümumiyyətlə, KİV vasitəsi ilə çoxsaylı çağırışlar edirlər, insanları qorunmağa səsləyirlər. Çox təəssüf ki, insanlarımız mütəxəssislərin çağırışlarına ciddi əhəmiyyət vermir, onların tövsiyələrinə diqqət etmir, sanki gündən-günə artan statistikanı həqiqət olaraq qəbul etmirlər. Əks halda yoluxma sayı bu qədər artmazdı.

Vətəndaşlarımız bilməlidirlər ki, əgər biz bugünkü ciddi vəziyyəti real olaraq qəbul edə bilmiriksə, daha ağır nəticələrlə üzləşə bilərik. Noyabrın 15-dəki məlumat yəqin ki, hamının yadındadır. Həmin gün koronavirus infeksiyasına 2229 yeni yoluxma faktı qeydə alındı. Bu, 13 337 nəfərdən götürülən test müayinəsinin nəticəsi idi. Deməli, test edilən hər beş nəfərdən biri virusa yoluxmuşdu. Aktiv xəstə olan 19 571 nəfərdən 1101-i müalicə olunaraq sağalıb və evə buraxılıb, 21 nəfər isə vəfat etmişdi. Gündən günə xəstə sayı da artır, ölüm halları da... Ondan bir gün sonra, noyabrın 16-da yoluxma sayının 1395 olması rahatlıq yaratmalı deyil. Həmin gün 7137 nəfər müayinə edilib və yenə hər beş nəfərdən birinin yoluxması təsdiqlənib, 18 nəfər vəfat edib, 605 nəfər müalicə olunaraq sağalıb. Noyabrın 17-də 2075 yoluxma faktı qeydə alınıb. Həmin gün 13213 test edilib, 20 nəfər vəfat edib, 1139 nəfər müalicə olunaraq sağalıb. Göründüyü kimi vəziyyət gərgin olaraq qalır.

Biz, hansı daha ağır vəziyyəti gözləyirik? Hazırkı dövrədək ölkəmizdə 79 min 158 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 56 min 894 nəfər müalicə olunaraq sağalıb, 1005 nəfər vəfat edib. Aktiv xəstə sayı 21259 nəfərdir. Heç kəsin gözləmədiyi bir vəziyyətdə, şəraitdəyik. Virus açıq – aydın bəşəriyyətə meydan oxuyur. Acınacaqlı haldır ki, insanların əksəriyyəti, məhz səhlənkarlıqdan, məsuliyyətsizlikdən bir zərrəciyin qurbanına çevrilirlər. Yaşamaq gözəldir, hələ torpaqları işğaldan azad edilmiş bir ölkədə başucalığı ilə gəzmək daha qürurvericidir. Bu şansdan özünüzü məhrum etməyin, dəyərli vətəndaşlarımız. Kiçik bir ehtiyatsızlıq ailənizin faciəsinə səbəb ola bilər. Onda sizə nə həkimin gücü yetər, nə də dava – dərmanın. Hər anı virusa yoluxa biləcəyiniz an kimi düşünün və ehtiyatlı olun!

*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*